# “Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 195-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 16 may tarixli 195-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 565 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli və 2026-cı il 14 yanvar tarixli 14 nömrəli qərarları) ilə təsdiq edilmiş “Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bəndə və 2.3.3-cü yarımbəndə “matroslar,” sözündən sonra “kursantlar,” sözü əlavə edilsin;

1.2. 2.3.4-cü yarımbəndə “baş matros,” sözlərindən sonra “kursant,” sözü əlavə edilsin;

1.3. 2.6.2-ci yarımbəndə “matrosların,” sözündən sonra “kursantların,” sözü əlavə edilsin.

2. “Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi”nin və “Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 4 avqust tarixli 274 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 8, maddə 960 (Cild I); 2025, № 5, maddə 504) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.3-cü bəndinə "ali" sözündən sonra "və orta ixtisas" sözləri əlavə edilsin, 2.1.1-ci, 9.2.3-cü yarımbəndlərində və 4.3-cü bəndində ismin müvafiq hallarında "ali hərbi məktəblər" sözləri ismin müvafiq hallarında "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və orta ixtisas təhsili müəssisələri" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Heydər Əliyev adına Hərbi Liseyin Nizamnaməsi"nin 1.3-cü bəndinə "ali" sözündən sonra "və orta ixtisas" sözləri əlavə edilsin, 2.1.1-ci, 9.2.3-cü yarımbəndlərində və 4.3-cü bəndində ismin müvafiq hallarında "ali hərbi məktəblər" sözləri ismin müvafiq hallarında "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və orta ixtisas təhsili müəssisələri" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 dekabr tarixli 524 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2240 (Cild I) ilə təsdiq edilmiş "Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiram göstərilən şəxslərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.5-ci yarımbəndə "keçən," sözündən sonra "hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı ali və ya orta ixtisas təhsili müəssisəsində təhsil alan," sözləri əlavə edilsin;

3.2. 3.6-cı bəndə "əsgər," sözündən sonra "matros, kursant," sözləri əlavə edilsin;

3.3. 3.10-cu bəndə "matros," sözündən sonra "kursant," sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli 153 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 720 (Cild I); 2024, № 4, maddə 449; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 25 dekabr tarixli 412 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu Qaydası"nın 1.1-ci bəndinə "qulluqçuları" sözündən sonra ", kursantlar" sözü əlavə edilsin.

**Əli ƏSƏDOV**

**Azərbaycan Respublikasının Baş naziri**

**Bakı şəhəri, 24 fevral 2026-cı il**

**№ 55**

**Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təyinatı, idarə olunması və hərbi quruculuğu məsələlərini tənzimləyir, habelə Silahlı Qüvvələrin əsas vəzifələrini və fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.

## 1-ci fəsil
## Ümumi müddəalar

### Maddə 1. Əsas anlayışlar

1.0. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakılardır:

1.0.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələri (bundan sonra – Silahlı Qüvvələr) - Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsi məqsədilə yaradılmış, Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarət hərbi təsisat;

1.0.2. Azərbaycan Ordusu - Silahlı Qüvvələrin əsas tərkib hissəsi olmaqla Azərbaycan Respublikasına qarşı yönəlmiş təcavüzün dəf edilməsini, ərazi bütövlüyünün və toxunulmazlığının silahlı müdafiəsini təmin edən və fəaliyyəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil edilən silahlı birləşmə;

1.0.3. Azərbaycan Respublikasının başqa silahlı birləşmələri (bundan sonra - başqa silahlı birləşmələr) - Silahlı Qüvvələrin tərkib hissəsi olmaqla bu Qanunla müəyyən edilmiş xüsusi vəzifələri yerinə yetirən və hərbi xidmət nəzərdə tutulan dövlət orqanları (dövlət orqanlarının strukturuna daxil olan qurumlar). Başqa silahlı birləşmələrə aid dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

### Maddə 2. Silahlı Qüvvələrin fəaliyyətinin hüquqi əsasları

2.1. Silahlı Qüvvələrin fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Qanun və Silahlı Qüvvələrin fəaliyyətini tənzimləyən digər normativ hüquqi aktlar təşkil edir.

2.2. Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin fəaliyyətinin hüquqi əsasları Azərbaycan Respublikasının müvafiq qanunları ilə müəyyən edilir.

## 2-ci fəsil
## Silahlı Qüvvələrin təyinatı, vəzifələri və fəaliyyətinin təşkili

### Maddə 3. Silahlı Qüvvələrin təyinatı

Silahlı Qüvvələr Azərbaycan Respublikasının silahlı müdafiəsi, təcavüzün dəf edilməsi, Azərbaycan Respublikasının Hərbi doktrinasında nəzərdə tutulmuş məqsədlərin reallaşdırılması, habelə Azərbaycan Respublikasının təhlükəsizliyinin və milli maraqlarının təmin edilməsi, konstitusiya quruluşunun, suverenliyinin, ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması, dövlət sərhədinin mühafizəsi, səfərbərlik və hərbi xidmətə çağırış, mülki müdafiənin

təşkili, *müvafiq icra hakimiyyəti orqanlarının əsasnamələrində göstərilən mühafizə olunan şəxslərin, qorunan obyektlərin və strateji obyektlərin təhlükəsizliyinin, xüsusi rabitənin və informasiya təhlükəsizliyinin təmin edilməsi*, məhkumların və həbsdə saxlanılan şəxslərin müşayiəti və mühafizəsi üzrə xüsusi vəzifələrin yerinə yetirilməsi üçün dövlət tərəfindən yaradılır.[1]

**Maddə 4. Silahlı Qüvvələrin əsas vəzifələri**

4.1. Dinc dövrdə Silahlı Qüvvələrin əsas vəzifələri aşağıdakılardır:
4.1.1. Azərbaycan Respublikasına qarşı təcavüzün qarşısını almağa və onu dəf etməyə hazır olmaq;
4.1.2. əməliyyat şəraitini, onun təhlükəli dəyişməsini izləmək və Azərbaycan Respublikasına qarşı təcavüzə hazırlığı vaxtında aşkar etmək və nəzarətdə saxlamaq;
4.1.3. hərbi idarəetmə orqanlarının, qoşunların (qüvvələrin) döyüşə və səfərbərliyə hazırlığını təcavüzün qarşısının alınmasını təmin edəcək səviyyədə saxlamaq;
4.1.4. konstitusiya quruluşunun, suverenliyin, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində iştirak etmək;
4.1.5. Azərbaycan Respublikasının dövlət sərhədini mühafizə etmək;
4.1.6. əhalinin və ərazinin (Azərbaycan Respublikası ərazisinin hüdudları daxilində torpaq, su və hava məkanının, istehsal və sosial təyinatlı obyektlərin, habelə ətraf mühitin) təhlükəsizliyinin təmin edilməsi məqsədilə mülki müdafiəni təşkil etmək;
4.1.7. fövqəladə halların aradan qaldırılmasında iştirak etmək;
4.1.8. Azərbaycan Respublikasının mühüm inzibati-siyasi mərkəzlərini, enerji və nəqliyyat infrastrukturunu, kommunikasiya qurğularını, xüsusi yükləri, hərbi obyektləri və digər mühüm dövlət obyektlərini mühafizə etmək;
4.1.9. azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş, habelə barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin mühafizəsi və müşayiət olunmasını, həmçinin penitensiar müəssisələrin mühafizəsini həyata keçirmək;
4.1.10. hərbi idarəetmə orqanlarının və qoşunların (qüvvələrin) əməliyyat, döyüş, səfərbərlik və mənəvi-psixoloji hazırlıq plan və proqramlarını daim təkmilləşdirmək;
4.1.11. hərbi texnikanı, silah, sursat və avadanlıqları modernləşdirmək, yeniləmək və döyüşə hazır vəziyyətdə saxlamaq, onunla rəftaretmə bacarığını təkmilləşdirmək;
4.1.12. səfərbərlik və hərbi xidmətə çağırış üzrə tədbirlər kompleksini təkmilləşdirmək;
4.1.13. peşəkar hərbi kadrlar hazırlamaq, hərbi təhsili daim təkmilləşdirmək, hərbi-elmi potensialı artırmaq;
4.1.14. beynəlxalq terrorçuluq və mütəşəkkil cinayətkarlıqla mübarizə aparmaq;
4.1.15. beynəlxalq hərbi əməkdaşlığı həyata keçirmək;
4.1.16. Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə əsasən sülhün və təhlükəsizliyin dəstəklənməsi (bərpa edilməsi) üzrə əməliyyatlarda iştirak etmək və həmin öhdəliklərdən irəli gələn digər vəzifələri yerinə yetirmək;
4.1.17. ölkə ərazisinin müdafiəsi üzrə tədbirlərin və mülki müdafiə planı layihəsinin hazırlanmasında iştirak etmək.
4.2. Dinc dövrdə yerinə yetirilən əsas vəzifələrə əlavə olaraq, real təhdid dövründə Silahlı Qüvvələrin əsas vəzifələri aşağıdakılardır:
4.2.1. döyüşə və səfərbərliyə hazırlığın səviyyəsini artırmaq, bununla bağlı əlavə tədbirlər kompleksini həyata keçirmək;
4.2.2. fövqəladə və hərbi vəziyyət rejimlərinin təmin edilməsi, ərazi müdafiəsi üzrə hazırlıq tədbirlərinin yerinə yetirilməsində iştirak etmək.
4.3. Dinc və real təhdid dövrlərində yerinə yetirilən əsas vəzifələrə əlavə olaraq, səfərbərlik və müharibə (silahlı münaqişə) dövründə Silahlı Qüvvələrin əsas vəzifələri aşağıdakılardır:
4.3.1. tam və ya qismən səfərbərlik üzrə tədbirləri vaxtında yerinə yetirmək;

4.3.2. ərazi müdafiəsi üzrə vəzifələri yerinə yetirmək;

4.3.3. Azərbaycan Respublikasına qarşı təcavüzü dəf etmək, ölkə ərazisinin müdafiəsi üzrə hərbi əməliyyatlar aparmaq, düşmən qüvvələrini məğlubiyyətə uğratmaq, onları Azərbaycan Respublikasının maraqlarına uyğun şərtlərlə hərbi əməliyyatları dayandırmağa (sülh danışıqları aparmağa və sülh sazişi bağlamağa) məcbur etmək.

**Maddə 5. Silahlı Qüvvələrin hərbi quruculuq və fəaliyyət prinsipləri**

5.0. Silahlı Qüvvələrin hərbi quruculuq və fəaliyyət prinsipləri aşağıdakılardır:

5.0.1. vahid və mərkəzləşdirilmiş rəhbərlik;

5.0.2. hərbi quruculuq tədbirlərinə və fəaliyyətinə nəzarət;

5.0.3. beynəlxalq hərbi quruculuq təcrübəsindən səmərəli istifadə;

5.0.4. döyüşə və səfərbərliyə daimi hazırlıq;

5.0.5. döyüş potensialının müasir hərbi elmin və texnikanın ən yeni nailiyyətləri səviyyəsində saxlanılması, texniki bazanın daima yenilənməsi;

5.0.6. təşkilati strukturun, döyüş hazırlığının və say tərkibinin yerinə yetirilən vəzifələrə, beynəlxalq öhdəliklərə və Azərbaycan Respublikasının iqtisadi imkanlarına uyğunluğu;

5.0.7. Silahlı Qüvvələrin şəxsi heyətinin müddətli həqiqi hərbi xidmət keçmək üçün çağırışçılarla və həqiqi hərbi xidmətə könüllü daxilolma əsasında komplektləşməsi;

5.0.8. dövlət sirrinin qorunması;

5.0.9. hərbi intizamın möhkəmləndirilməsi, şəxsi heyətdə Azərbaycan Respublikasına, Azərbaycan xalqına, hərbi anda sədaqət hissinin, öz vətəninin tarixinə və ənənələrinə dərin məhəbbətin, vətənin müdafiəsi naminə yüksək şəxsi məsuliyyətin formalaşdırılması, gənclərdə hərbi xidmətə marağın yüksəldilməsi;

5.0.10. qanunun aliliyi, humanizm, qanun qarşısında bərabərlik, insan və onun konstitusion hüquq və azadlıqlarına hörmət;

5.0.11. hərbi qulluqçuların və mülki işçilərin, onların ailə üzvlərinin sosial müdafiəsinin təmin edilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması;

5.0.12. Silahlı Qüvvələrdə siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və dini qurumların yaradılmasının və fəaliyyətinin qadağan edilməsi.

**Maddə 6. Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumların qarşılıqlı fəaliyyəti**

6.1. Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumlar dinc və real təhdid dövrlərində dövlətin hərbi təhlükəsizliyi və silahlı müdafiəsi üzrə vəzifələrini Azərbaycan Respublikasının Hərbi Doktrinasına, müvafiq sahə üzrə dövlət siyasətinə və qanunlarına uyğun olaraq qarşılıqlı əlaqədə həyata keçirirlər.

6.2. Səfərbərlik və müharibə (silahlı münaqişə) dövründə Silahlı Qüvvələrin dövlətin hərbi təhlükəsizliyi və silahlı müdafiəsi üzrə mərkəzləşdirilmiş birgə fəaliyyəti Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının qərarları və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanının əmrləri əsasında həyata keçirilir.

## 3-cü fəsil
## Silahlı Qüvvələrin idarə edilməsi və təminatı

**Maddə 7. Silahlı Qüvvələrin idarə edilməsi**

7.1. Silahlı Qüvvələrə ümumi rəhbərliyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı həyata keçirir.

7.2. Səfərbərlik və müharibə (silahlı münaqişə) dövründə Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumların komandanlığına daxil olan vəzifəli şəxslər arasında səlahiyyət bölgüsü Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı tərəfindən aparılır.

**Maddə 8. Silahlı Qüvvələrin maliyyə təminatı**

8.1. Silahlı Qüvvələrin maliyyə təminatı dövlət büdcəsi və qanunla nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

8.2. Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumların maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində ayrıca sətirlə müəyyən edilir və həmin qurumlar üçün xidməti yaşayış evlərinin, sosial-mədəni və xüsusi obyektlərin tikintisi üçün vəsait ayrıca nəzərdə tutulur.

8.3. Silahlı Qüvvələrin maliyyələşməsinə ayrılmış vəsait və onun xərclənməsi üzərində nəzarət "Büdcə sistemi haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunları və həmin qanunlara əsasən qəbul edilmiş müvafiq normativ hüquqi aktlar ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

**Maddə 9. Silahlı Qüvvələrin əmlakı və maddi-texniki təminatı**

9.1. Silahlı Qüvvələrin fəaliyyətinin təmin edilməsi və ona həvalə edilmiş vəzifə və tapşırıqların yerinə yetirilməsi üçün istifadə edilən hərbi infrastruktur obyektləri, silah və hərbi texnikanın bütün növləri, maddi vasitələr və digər daşınar və daşınmaz əmlak Silahlı Qüvvələrin istifadəsində olan əmlakdır.

9.2. Silahlı Qüvvələrin istifadəsində olan əmlak dövlət mülkiyyəti olmaqla hərbi əmlakdan və digər təyinatlı əmlakdan ibarətdir.

9.3. Silahlı Qüvvələrin maddi-texniki təminatı, silah və hərbi texnikanın alınması da daxil olmaqla, dövlət müdafiə sifarişlərinə, Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumlar tərəfindən bağlanmış müqavilələrə, həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə müvafiq olaraq həyata keçirilir.

9.4. Silahlı Qüvvələrin səfərbərlik ehtiyacının, həmçinin təyinatına uyğun olaraq üzərinə qoyulmuş vəzifələrin icrasının təmin edilməsi məqsədi ilə Silahlı Qüvvələrdə silah, hərbi texnika və digər maddi vasitələrin toxunulmaz ehtiyatı yaradılır.

9.5. Silahlı Qüvvələrin maddi-texniki təminatını müvafiq icra hakimiyyəti orqanı təşkil edir.

9.6. *Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin ~~hər biri üçün ayrılıqda~~ dinc və müharibə (silahlı münaqişə)* dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydası ~~və *təminat* norması~~ müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[2]

## 4-cü fəsil
## Silahlı Qüvvələrdə xidmət

**Maddə 10. Silahlı Qüvvələrin şəxsi heyəti və komplektləşdirilməsi**

10.1. Silahlı Qüvvələrin şəxsi heyəti hərbi qulluqçulardan, dövlət qulluqçularından və digər mülki işçilərdən ibarətdir.

10.2. Silahlı Qüvvələr hərbi xidmətə çağırış və hərbi xidmətə könüllü daxilolma, həmçinin işə, o cümlədən, dövlət qulluğuna qəbul edilmə əsasında komplektləşdirilir. Silahlı Qüvvələrin komplektləşdirilməsi bu Qanunun 10.3-cü maddəsində qeyd olunmuş normativ hüquqi aktlara uyğun olaraq onlar üçün müəyyənləşdirilmiş vəzifələrin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilir.

10.3. Silahlı Qüvvələrdə hərbi qulluqçuların hərbi xidmət keçməsi "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu və "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə, dövlət qulluqçularının qulluğu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, digər mülki işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

10.4. Silahlı Qüvvələrin hərbi qulluqçuları müvafiq peşə qabiliyyətinə, ixtisas hazırlığına, hüquqi biliyə və fiziki hazırlığa malik olmalı, onlara təhkim edilmiş müvafiq silah, texnika və vasitələrdən istifadə etməyi bacarmalıdırlar.

10.5. Silahlı Qüvvələrin hərbi qulluqçularının başqa dövlətlərin ixtisaslaşdırılmış təhsil müəssisələrində təhsil alması beynəlxalq müqavilələr əsasında təşkil edilir.

**Maddə 11. Silahlı Qüvvələrin hərbi qulluqçularının hüquqi statusu**

Silahlı Qüvvələrin hərbi qulluqçularının əsas hüquq və vəzifələri, təminatları və hərbi xidmətlə əlaqədar hüquqlarının məhdudlaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası, "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə və digər qanunlar, o cümlədən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi nizamnamələri ilə tənzimlənir.

**Maddə 12. Silahlı Qüvvələrdə hüquqi və sosial müdafiə**

Silahlı Qüvvələrdə hərbi qulluqçuların, dövlət qulluqçularının və digər mülki işçilərin, onların ailə üzvlərinin, həmçinin ehtiyata və istefaya buraxılmış şəxslərin hüquqi və sosial müdafiəsi müvafiq olaraq "Hərbi qulluqçuların statusu haqqında", "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və digər qanunvericilik aktlarına müvafiq olaraq həyata keçirilir.

**Maddə 13. Silahlı Qüvvələrin hərbi qulluqçuları tərəfindən hərbi xidmət vəzifələrinin icrası**

13.1. Silahlı Qüvvələrin hərbi qulluqçuları "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 27-ci maddəsi ilə nəzərdə tutulmuş hallarda hərbi xidmət vəzifələrini icra edən hesab edilirlər.

13.2. Silahlı Qüvvələrin hərbi qulluqçuları hərbi xidmət vəzifələrini yerinə yetirərkən Silahlı Qüvvələrin hərbi nizamnamələrinin tələblərini və komandirlərin (rəislərin) qəbul etdiyi qərarları (əmr və sərəncamları) icra edirlər.

13.3. Silahlı Qüvvələrin təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına cəlb edilməsi müvafiq icra hakimiyyəti orqanının təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisinin qərarına əsasən həyata keçirilir.

**5-ci fəsil**
**Yekun müddəalar**

**Maddə 14. Silahlı Qüvvələrin şəxsi heyətinin məsuliyyəti**

14.1. Silahlı Qüvvələrin hərbi qulluqçularının, dövlət qulluqçularının və digər mülki işçilərinin intizam məsuliyyəti müvafiq olaraq Silahlı Qüvvələrin hərbi nizamnamələri, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

14.2. Silahlı Qüvvələrin hərbi qulluqçularının, dövlət qulluqçularının və digər mülki işçilərinin inzibati və cinayət məsuliyyəti müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə tənzimlənir.

14.3. Silahlı Qüvvələrin hərbi qulluqçularının dövlətə vurduqları ziyana görə maddi məsuliyyətinin əsasları, vurulan ziyanın miqdarının müəyyən edilməsi və ödənilməsi qaydaları

"Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamə ilə tənzimlənir.

14.4. Silahlı Qüvvələrin hərbi qulluqçularının, dövlət qulluqçularının və digər mülki işçilərinin xidməti vəzifələrin icrası zamanı son zərurət və zəruri müdafiə vəziyyətində vurduqları ziyana (zərərə) və mülki hüquq pozuntularına görə mülki məsuliyyətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq həll edilir.

**Maddə 15. Silahlı Qüvvələrin fəaliyyətinə nəzarət**

15.1. Silahlı Qüvvələrin fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı həyata keçirir.

15.2. Silahlı Qüvvələrin fəaliyyətinə idarədaxili nəzarəti Silahlı Qüvvələrin tərkib hissəsi olan qurumların komandanlığı və həmin qurumların daxil olduğu dövlət orqanlarının rəhbərləri həyata keçirir.

15.3. Prokurorluq orqanları Silahlı Qüvvələrdə qanunların icrasına nəzarəti qanunla müəyyən edilmiş hallarda və qaydada həyata keçirirlər.

**Maddə 16. Yekun müddəa**

Bu Qanun qüvvəyə mindiyi gündən "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının 1991-ci il 9 oktyabr tarixli 210-XII nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1991, № 19-20, maddə 329; 1992, № 5, maddə 102, № 11, maddə 409; 1993, № 23-24, maddə 670; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 15; 2005, № 7, maddə 576) ləğv edilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2017-ci il
№ 955-VQ

**“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 23 (Cild I) 9.6-cı maddəsindən “hər biri üçün ayrılıqda” və “və təminat norması” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 noyabr 2024-cü il**
**№ 63-VIIQD**

**“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında”Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № I, maddə 23) 9.6-cı maddəsində “Silahlı Qüvvələrin dinc, real təhdid, səfərbərlik və müharibə (silahlı münaqişə)” sözləri “Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə)” sözləri ilə, “tələbat” sözü “təminat” sözü ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 fevral 2022-ci il**

Azərbaycan.-2022.- 29 mart.- S.7.

**“Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 25 fevral tarixli 485-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikası Qanununun 9.6-cı maddəsinə uyğun olaraq, Azərbaycan Ordusunun və başqa silahlı birləşmələrin hər biri üçün ayrılıqda dinc və müharibə (silahlı münaqişə) dövrlərində maddi-texniki vasitələrlə təmin edilməsi qaydasını və təminat normasını altı ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. “Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 955-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 yanvar tarixli 1794 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 50) 1.3-cü bəndi ləğv edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 mart 2022-ci il**

Azərbaycan.- 2022.- 29 mart.- S.7.

## Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Demokratik Respublikası Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə ilk ordu hissəsi "Əlahiddə Azərbaycan korpusu"nun təşkil olunduğunu əsas tutaraq Müstəqil Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranması gününü qeyd etmək məqsədi ilə **qərara alıram:**

**1.** Hər il **iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri günü** kimi qeyd edilsin.

2. "9 oktyabrın Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli 217 nömrəli Fərmanı qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikasının Prezidenti,**
**HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 22 may 1998-ci il
№ 707